# İNSAN KAPİTALININ FORMALAŞMASINDA TƏHSİLİN ROLU

***Vüsalə Teymurova***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*"Statistika" kafedrasının dosenti, i.ü.f.d.*
*AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6*
*e-poçt: vuska_2477@mail.ru*

**Açar sözlər:** insan kapitalı, təhsil, təhsil sistemi, elmi potensial, modernləşmə.
**Ключевые слова:** человеческий капитал, образование, система образования, научный потенциал, модернизация.
**Keywords:** human capital, education, education system, scientific potential, modernization.

Azərbaycanın davamlı iqtisadi inkişafının mühüm aspektlərindən biri insan kapitalının və bütövlükdə insan potensialının inkişaf imkanlarının genişləndirilməsidir. İqtisadi artım templəri innovasiya proseslərinin sürətli gedişatı ilə müəyyən olunur ki, bu da, öz növbəsində, bəzi amillərdən asılıdır. Bu amillərə elm və texnologiyanın prioritet istiqamətlərinin inkişafı, müəssisə və təşkilatların bütün səviyyələrində çalışan işçilərin innovativyönümlülüyü, eləcə də rəqabətqabiliyyətli, mütərəqqi vasitələrin istifadəsi və s. aiddir. Hazırda elmi nöqteyi-nəzərdən daha populyar olan insan kapitalı cəmiyyətin təbii ehtiyatları və sərvətlərindən də daha böyük əhəmiyyət kəsb edən ən qiymətli resursdur.

İnsan kapitalının formalaşmasında təhsil həlledici rola malikdir. Bu gün təhsil əmək bazarında təsərrüfat subyektinin uğurunun, ölkənin iqtisadi artımının və elmi-texniki potensialın artırılmasının mühüm amilidir [2]. Beləliklə, insanların həyatlarındakı uğuru təhsil ilə bağlamaq mümkündür. Bu da ona əsas verir ki, ölkəmizdə ali və orta təhsil alanların sayı, eləcə də xarici ölkələrdə təhsil alanların sayı ildən-ilə artmaqdadır. Bu artım cavan nəslin peşə yüksəlişinə, yüksək hazırlığına dəlalət edir. Sözsüz ki, təhsilin keyfiyyəti bizim milli perspektivlərə birbaşa təsir edir.

Azərbaycanda təhsil sahəsində işləyənlərin sayına gəldikdə isə 2014-2015-ci illərdə dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində professor-müəllim heyətinin sayı 15023 nəfər olmuşdur. Onlardan 1166 nəfər elmlər doktoru, 5828 nəfər isə fəlsəfə doktorudur. 2015-2016-cı illərdə isə professor-müəllim heyətinin sayı 14550, elmlər doktorlarının - 1229, fəlsəfə doktorlarının sayı isə 5957 nəfər olmuşdur. Professor – müəllim heyətinin ümumi sayında azalma müşahidə olunsa da, elmi dərəcəsi olanların sayı keçən tədris ilinə nisbətən növbəti ildə 192 nəfər, yəni 2,7 % artmışdır [1]. Bu o deməkdir ki, Azərbaycan xalqının elmi potensialı həmişə olub və inkişaf etməkdədir, yəni elmə olan maraq artmaqdadır. Bu da elm sahəsinə yönələn diqqət və qayğıdan irəli gəlir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Fərmanı ilə qəbul edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin başlıca istiqamətləri"ndə insan kapitalının inkişafına dair bölmənin əks olunması buna bariz nümunədir [7].

Ölkə əhalisinin təhsil səviyyəsi haqqında məlumat 1-ci cədvəldə verilmişdir. 2016-cı ildə əhalinin hər 1000 nəfərinə düşən ali və orta təhsili olanların sayı 2006-cı illə müqayisədə təxminən 3% artmışdır [1].

**Cədvəl 1**

**15 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərinə düşən təhsili olanlar haqqında məlumat (ilin əvvəlinə)** [1]

| Təhsil səviyyəsi | 2006 | 2011 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| Ali və orta təhsili olan 15 və yuxarı yaşlı bütün əhali | 946 | 968 | 969 | 971 | 971 | 972 |
| ali | 118 | 124 | 125 | 126 | 126 | 127 |
| orta ixtisas | 93 | 85 | 85 | 85 | 85 | 85 |
| tam orta | 601 | 628 | 629 | 630 | 630 | 630 |
| ümumi orta | 134 | 131 | 130 | 130 | 130 | 130 |

Rəqabətdə üstünlüyü nə ölkənin ərazisi, zəngin təbii sərvətləri, nə də maliyyə kapitalının gücü təşkil etmir. Bu, təhsil səviyyəsi və cəmiyyət tərəfindən illərlə yığılmış biliklərin həcmi ilə ölçülür. Elmi biliklərin müasir iqtisadiyyatda rolunu amerikan alimləri kifayət qədər tədqiq etmişlər. Onlar ABŞ-ın ÜDM-nin 51%-nin 14,5 ilədək təhsil almış insanlar qrupu hesabına yaranmasını, qalan 49%-nin isə 10,5 və 12,5 il ümumi və peşə təhsil alanların payına düşməsini hesablamışlar [3]. Göründüyü kimi, iqtisadi inkişaf təhsil səviyyəsi ilə sıx bağlıdır.

Cəmiyyətin inkişafının müasir mərhələsində təhsil – insan, cəmiyyət və bütövlükdə dünya üçün mühüm, müəyyənedici bir amildir. İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da gəlirlərin səviyyəsi və bütün həyatı boyu əldə olunan təhsil arasında güclü əlaqə vardır. Təsadüfi deyil ki, BMT tərəfindən tərtib edilmiş "İnsanın inkişaf indeksi"nin hesablanmasında məhz təhsil səviyyəsi göstəricisi önəmli yer tutur. Buna görə də insan kapitalının formalaşmasının araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

İnsan kapitalının formalaşması bilavasitə ev təsərrüfatları, müəssisələr və dövlət tərəfindən həyata keçirilir. Bu vəzifəni həll edərkən təhsil almadan fayda əldə etməni müəyyən təhsilə çəkilən xərclərlə müqayisə edirlər. Aydındır ki, təhsilin davam etməsinin əsas iqtisadi arqumenti gələcəkdə istehsal gücünün və əməkhaqqının artımının gözlənilməsidir. Digər bərabər şəraitdə təhsilli işçi daha böyük insan kapitalına malikdir və müvafiq olaraq, daha çox əməkhaqqı əldə edir.

İnsan kapitalının modeli onu göstərir ki, həyatı boyu məcmu faydalılığının maksimumlaşdırılması o zaman əldə olunur ki, hər bir fərd gənclik dövrünə ən böyük investisiya qoyuluşlarını həyata keçirir, çünki insan ömrünün son müddətində qoyulan investisiyalar daha çox gəlir gətirmək imkanına malik deyildir [2]. İnsan kapitalının təhlili təhsildən əldə olunan gəlir norması anlayışının istifadəsi ilə həyata keçirilir. Təhsildən əldə olunan gəlir norması - təhsilə qoyuluşlardan gələcək faydaların və onlarla bağlı xərclərin məbləğini bərabərləşdirən diskont dərəcədir. İnsan kapitalının gəlir norması bilik və bacarıqlara qoyulan investisiyaların iqtisadi cəlbediciliyini xarakterizə edir [4]. Bununla yanaşı, gəlir norması təhsilin müxtəlif növ və səviyyələri, eləcə də təhsil sistemi və iqtisadiyyatın digər sahələri arasında investisiyaların paylanmasının tənzimləyici vasitəsidir.

İnsan kapitalı müəyyən keyfiyyət və kəmiyyət xarakteristikalarını özündə birləşdirir və onun mühüm meyarlarından biri ümumi və xüsusi hazırlıq səviyyəsidir. Bu meyar işçi qüvvəsinin ixtisas xüsusiyyətini aşkar etməyə və onların iqtisadi artıma təsirini müəyyən etməyə imkan verir [5].

Azərbaycanda müəyyən mənada böyük və ildən-ilə yığılmış insan kapitalı vardır. Məsələn, 2015-ci ilin seçmə müayinəsinin yekunlarına nəzər salsaq, görərik ki, məşğul əhalinin 16,3% ali təhsillidir, 10,6% orta ixtisas təhsilli, 5,5% peşə təhsilli, 60,4% orta təhsilli, 6,3 % əsas təhsilli, 0,9% ibtidai təhsillidir [1].

Müasir dövrdə həyat keyfiyyətinin yaxşılaşdırılması və peşə artımı məqsədi ilə ali təhsil almaq istəyənlərin sayı artır. Buna misal olaraq, dövlət və qeyri-dövlət müəssisələrində təhsil alanların sayının ildən-ilə artmasını göstərə bilərik. Rəsmi statistikanın məlumatlarına görə

2015-2016-cı tədris ilində 54 dövlət və özəl ali məktəblərdə təhsil alan tələbələrin sayı 161,2 min nəfər, onlardan 41 dövlət universitetlərində 140,6 min nəfər, 13 özəl universitetlərində isə 20,6 min nəfər təşkil etmişdir. Ali təhsil müəssisələrinin bakalavriat pilləsinə qəbul olanların sayı 33,6 min nəfər, magistr pilləsinə isə 5,0 min nəfər təşkil etmişdir ki, bu da əvvəlki illərlə müqayisədə artım meylinin olduğunu göstərir. Belə kl, 2005-2006-cı tədris ilinə nisbətən 2014-2015-ci tədris ilində tələbələrin sayı 28,3 min nəfər, yəni 22%, 2015-2016-cı tədris ilində isə 31,3 min nəfər, yəni 24% artmışdır [1].

Lakin tələbələrin sayının artması hələ heç də təhsilin keyfiyyətinin yüksəlməsi demək deyildir. Azərbaycanda Boloniya sisteminə keçid ilə əlaqədar olaraq xeyli işlər görülmüşdür. Yeni ixtisasların yaranması, tədris olunan fənlərin tələbələrə seçim hüququnun verilməsi, müəllimlərin interaktiv formada dərs keçməsi və s. tədrisin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərmişdir. Lakin bu son deyil və bununla kifayətlənmək olmaz. Müasir şəraitdə ölkənin təhsil sisteminin dünya standartlarına uyğunlaşdırılmasına nail olmaq zəruri şərt kimi qəbul olunmuşdur.

Azərbaycanda olan təhsil sistemi hələ də sosializm dövründəki təhsil meyarları ilə əlaqəlidir. Əlbəttə, bu dövrün təhsil sistemində də Avropa və Amerika təhsil modellərində olduğu kimi müsbət və mənfi tərəflər mövcud olub. Vaxtilə ən yaxşılardan olan Avropa təhsil modeli artıq müəyyən problemlərlə qarşılaşır. Belə ki, böyük sayda olan məzunlar əmək bazarında öz yerlərini tuta bilmirlər. Amerika təhsil modeli isə digər ölkələrdən olan tələbələrin və immiqrantların daimi axını hesabına öz əhəmiyyətini və liderliyini qoruyub saxlayır. Düzdür, liderliyin digər səbəbləri də vardır. Məsələn, dünya üzrə universitetlərin reytinqləri müxtəlif cür təsnifatlaşır: tələbələrin sayı, professor-müəllim heyəti arasında Nobel mükafatı laureatlarının olması və s. Amma bütün reytinq şkalalarında ən önəmlisi tədris prosesinin mükəmməl təşkilidir. Son illərdə Amerika universitetləri (Harvard, Miçissuri və s.) dünya üzrə reytinqdə birinciliyini qoruyub saxlamışlar. Demək, Amerika təhsil modeli daha böyük üstünlük təşkil edir.

Boloniya prosesi çərçivəsində ali təhsil sisteminin inkişafının vəzifələrinə aşağıdakılar aiddir:

- Vahid Avropa təhsil məkanına daxil olmaq;
- Tələbə və müəllim heyətinin virtual mobillilik texnologiyalarının tətbiqi;
- İnformasiya-telekommunikasiya sisteminin formalaşması;
- İnkişaf etmiş informasiya texnologiyaları vasitəsi ilə Boloniya təhsil məkanına qoşulmanın elektron monitorinq sistemlərinin inkişafı.

Bu vəzifələrin həllinə mövcud imkanlar səbəb ola bilər, yəni intelektual səviyyə, ali məktəblərin milli ənənələri və s.

Ali təhsil müəssisələrini elmsiz təsəvvür etmək mümkün deyil. Azərbaycanda ali təhsil sistemi iki pilləlidir: bakalavriat və magistratura. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün xüsusi diqqət, fikrimizcə, magistratura pilləsinə verilməlidir. Belə ki, son dövrlərdə magistr dərəcəsini almaq istəyənlərin sayı artmaqdadır və yuxarıda qeyd edildiyi kimi, artır da. Eyni zamanda hesab edirik ki, magistr proqramlarının inkişafına da önəm verilməlidir.

Doktoranturanın inkişafı isə sözsüz olaraq, ali təhsil müəssisələrinin elmi potensialının təmin edilməsi ilə əlaqədardır. Lakin son zamanlar doktorantların bəziləri işlərini başa çatdırmırlar, digərləri isə bu sahədən uzaqlaşırlar. Buna baxmayaraq, fəlsəfə və elmlər doktoru proqramı üzrə təhsil alanların sayında kəskin azalma müşahidə olunmamışdır. Bu meyil aşağıdakı şəkildə öz əksini tapmışdır (Şəkil 1).[1]

---

[1] Mənbə-www.stat.gov.az saytının məlumatlarından istifadə edilərək tərtib edilmişdir.




Şəkil 1. 2005-2015-ci illərdə fəlsəfə və elmlər doktoru proqramlarının göstəriciləri

Göründüyü kimi, qəbul olan doktorantların sayı 2014-cü illə müqayisədə 2015-ci ildə fəlsəfə doktoru proqramı üzrə 71 nəfər, elmlər doktoru proqramı üzrə 35 nəfər azalmışdır [1]. Bu azalma daha səmərəli, adekvat, elmi potensialı yüksək olanların dünya səviyyəsində qəbul edilmiş qaydalara uyğun olaraq seçilməsi ilə bağlıdır.

Elmin sahələri üzrə fəlsəfə doktoru proqramı üzrə buraxılışın quruluşunda uzun illərdir ki, ən yüksək xüsusi çəkiyə malik olan iqtisadiyyat, filologiya, hüquq və s. sahələrdir. 2015-ci ildə dissertasiya müdafiə etməklə fəlsəfə doktoru proqramı üzrə buraxılışın quruluşu elmin sahələrinə görə aşağıdakı dairəvi diaqramda verilmişdir (Şəkil 2)[2].




Şəkil 2. 2015-ci ildə elmin sahələri üzrə dissertasiya müdafiə etməklə fəlsəfə doktoru proqramı üzrə buraxılışın quruluşu

Beləliklə, ölkə iqtisadiyyatının müasir mərhələsində inkişafın yüksək məqamına çatmaq üçün dünyada qəbul edilmiş ali təhsil sisteminin formalaşması zəruridir.

[2] Mənbə-www.stat.gov.az saytının məlumatlarından istifadə edilərək tərtib edilmişdir.

Araşdırılan sahənin mövcud problemlərindən biri də təhsil müəssisələrinin məzunlarının məşğulluq problemi ilə uzlaşmasıdır. Belə ki, əmək bazarı və təhsil bazarları arasında əlaqənin olmaması son nəticədə tələbələrin sayının və nəhayət, təhsil səviyyəsinin aşağı düşməsinə səbəb ola bilər. Bu gün təəssüflə demək olar ki, iqtisadiyyatda işçilərə olan tələb və təklif arasında müəyyən bir boşluq vardır. Lakin əminliklə deyə bilərik ki, yaxın gələcəkdə ölkədə aparılan uğurlu sosial-iqtisadi islahatlar nəticəsində bu boşluqlar və çatışmamazlıqlar aradan qaldırılacaqdır.

İqtisadiyyatın modernləşdirilməsinin müasir mərhələsində mühüm və zəruri addım dünyada qəbul edilən ali təhsil strukturudur. Bu baxımdan, Boloniya layihəsinin aktuallığı şübhə yaratmır. Müasir ali təhsil müəssisələrinin təhsil paradiqmasının əsasında təlim texnologiyaları durur, yəni internet, kompüter proqramları və s. Boloniya prosesi çərçivəsində ölkənin ali təhsil müəssisələrində layihələrin həyata keçirilməsi üzrə işlər həm yerli, həm də avropa təcrübəsini birləşdirən milli təhsil sistemini formalaşdırmağa imkan verir və bu da insan kapitalının formalaşması üçün əlverişli şərait yaradır.

## Nəticə

İnsan kapitalının formalaşması keyfiyyətli təhsil, təhsildə innovasiyalar olmadan mümkün deyildir. Əks halda bu, cəmiyyət üçün problemlər yarada bilər. Deməli, təhsil müəssisələrində təhsil prosesinə innovasiyaların maksimal dərəcədə tətbiq edilmə mexanizmi yaradılmalıdır. Hesab edirik ki, Azərbaycanda olan bilik potensialı yaxın gələcəkdə özünü büruzə verəcək və dünyəvi reytinq qiymətləndirmə meyarlarına görə ölkəmiz xüsusi yer alacaq. Bunun üçün cəmiyyətin, dövlətin və ali məktəblərin əlaqəsini genişləndirməsi lazımdır. Beləliklə, milli təhsil sisteminin dünya səviyyəsində mövcud olan təhsil məkanına inteqrasiyasının əsas şərti ali məktəblərin göstəricilərinin beynəlxalq tələblərə uyğun olmasıdır. Təhsilin inkişafının strategiyasının seçimində "beynəlmillilik" amilinin nəzərə alınması zəruridir. Ölkəmizdə fəaliyyət göstərən təhsil ocaqları nəinki Azərbaycanın sakinlərini, eləcə də inkişaf etmiş ölkələrin vətəndaşlarını da cəlb etməlidir. Qeyd edək ki, xarici tələbələr üçün ölkəmizdə tolerantlıq mühiti yaradılmışdır.

Azərbaycanda insan kapitalının inkişafında bəzi çatışmazlıqlara baxmayaraq, onun iqtisadi artıma və cəmiyyətin sosial-iqtisadi tərəqqisinə töhfəsi kifayət qədər yüksəkdir. Hazırda əsas diqqəti təhsil sisteminin modernləşməsi və insan kapitalının səmərəli istifadəsinə yönəltmək zəruridir.

**Vüsalə Teymurova**

**İnsan kapitalının formalaşmasında təhsilin rolu**

**Xülasə**

Azərbaycanın davamlı iqtisadi inkişafının mühüm aspektlərindən biri insan kapitalının və bütövlükdə insan potensialının inkişaf imkanlarının genişləndirilməsidir. İnsan kapitalının formalaşmasında təhsil həlledici rola malikdir. Bu gün təhsil bazarda təsərrüfat subyektinin uğurunun, ölkənin iqtisadi artımının və elmi-texniki potensialın artırılmasının mühüm amilidir. Beləliklə, illərlə yığılmış insan kapitalından səmərəli istifadə ölkənin strateji məqsədlərinə nail olunmasının və Azərbaycan iqtisadiyyatının yüksəlişinin mühüm əsas şərtlərindən biridir.

**ВусалаТеймурова**

**Роль образования в формировании человеческого потенциала**

**Резюме**

Одним из важных аспектов устойчивого экономического развития Азербайджана является расширение возможностей развития человеческого капитала и человеческого

потенциала в целом. Образование играет решающую роль в формировании человеческого капитала. Сегодня образование является важным фактором успеха хозяйствующего субъекта на рынке, экономического роста страны и увеличения научно-технического потенциала. Таким образом, эффективное использование накопленного в течение многих лет человеческого капитала является одним из важных условий достижения стратегических целей страны и роста экономики Азербайджана.

**Vusala Teymurova**

**The role of education in the formation of human capital**

**Summary**

One of the most aspects of sustainable economic development of Azerbaijan is the empowerment of human capital and human development in general. Education plays a crucial role in the formation of human capital. Today, education is an important factor in the success of an economic entity in the market, the country's economic growth and scientific and technical potential. Thus, the effective use of human capital gained during many years is one of the important conditions of achieving the strategic objectives of the country and economic growth of Azerbaijan's economy.

**Ədəbiyyat**

1. Azərbaycanın statistik göstəriciləri-2016. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri. Bakı, 2016.
2. Andreas Savvides and Thanasis Stengos. Human capital and economic growth. California. 2009.
3. П.Гречко. Глобализация: образовательные горизонты. Высшее образование в России. 2005. №11.
4. С.Э.Савзиханова, В.Н.Косинова. Обучение требует решений. Креативная экономика. 2011. №12.
5. А.И.Добрынин, С.А.Дятлов, Е.Д.Цыренова. Человеческий капитал в транзитивной экономике: формирование, оценка, эффективность использования. Наука, 1999.
6. www.stat.gov.az
7. www.president.az